AMEA Riyaziyyat və Mexanika İnstitutunun
"Sürüncəklik nəzəriyyəsi" şöbəsinin
2014-cü ilin birinci yarımili üçün

HESABATI

Şöbədə 10 (on) nəfər fəaliyyət göstərir. Elmi işçilərdən 2 (iki) nəfəri elmlər doktoru, 3 (üç) nəfəri fəlsəfə doktorudur. Şöbənin əməkdaşları bir mövzu- "Reonom materialdan hazırlanmış konstruksiyaların deformasiyası" mövzusu üzrə 10 (on) elmi tədqiqat işi yerinə yetirir.

İş 1. Cisimlərin korroziya dağılmasının bir stoxastik modeli.
İcraçı: f.-r.e.d., prof. L.X. Talıblı.

Aqressiv mühitlə əhatə olunmuş və təsadüfi mexaniki yüklənmələrə məruz qalan kontsruksiyaların dağılma vaxtını proqnozlaşdırmağa imkan verən üsul işlənib hazırlanır. Əsas nəticə-konstrusiyanın xidmət müddətinin təyini üçün düstur alınmışdır. İkinci yarımildə alınmış düsturun təcrübə məlumatları əsasında yoxlanması həyata keçiriləcəkdir.

İş 2. Dəyişən qalınlıqlı çatın inkişafının dayandırılması.
İcraçı: f.-r.r.d., prof. V.M. Mirsəlimov.
Elastiki sonsuz müştəri sonsuzluqla dartılır. Müstəvi dəyişən qalınlıqlı çata malikdir. Çatın uclarında gərginlik intensivliyi təyin edilir. İntensivliyin elə qiyməti tapılır ki, bundan kiçik qiymətlərdə çat inkişaf etmir.
İkinci yarımildə xüsusi hallara baxılacaq.

İş 3. Korroziya mühitinin təsirini nəzərə almaqla kəsik konusvari valın burulması.
İcraçı: f.-r.e.n. dos. a.e.i. R.Ə. Kazımova.

Korroziya mühitində kəsik konusvari valın burulma deformasiyasında çatlama vaxtının təyini məsələsinə baxılır. Məsələnin qoyuluşu verilmiş, həll üsulu seçilmiş və məsələ həll olunmuşdur. İkincə yarımildə uyğun qrafiklərin qurulması nəzərdə tutulur.

İş 4. Zədələnmiş valın burulmada uzun müddətli möhkəmliyi.
İcraçı: f.-r.e.n., dos., a.e.i. M.Ə. Məmmədova.

Valın materialının zədələndiyi qəbul edilir. Belə materialdan hazırlanmış valın burulmasında dağılma təyin edilir.

İş 5. Lövhədə qabırğalarla koqezion çatların qarşılıqlı təsiri.
İcraçı: f.-r.e.n., dos. a.e.i. M.V. Mirsəlimzadə.

Sonsuz elasitiki lövhələrin dartılmasında qabırğalarla koqezion çatların bir-birinə təsiri öyrənilir. Məsələnin riyazi qoyuluşu verilmiş və həll edilmişdir. İkinci yarımildə xüsusi hallar tədqiq olunacaq.

İş 6. Aqressiv mühitin konsentrasiyasının korroziya dağılmasına təsiri.
İcraçı e.i. H.Ə. Məmmədova

Ədəbiyyatda mövcud olan təcrübə verilənləri əsasında aqressiv mühitlərin aktiv komponentlərinin konsentrasiyasının korroziya dağılmasına təsiri öyrənilir.

İş 7. Özlüelastiki plastik xassəli deşikli lövhənin dartılması.
İcraçı: e.i. P.V. Həsənova.

Deşiyi olan düzbucaqlı lövhə iki tərəfli dartılır. Lövhənin materialı özlüelastiki plastikdir. Məsəlinin qoyuluşu verilmiş və məsələ həll olunmuşdur.

İş 8. Sərhəddində toxunan qüvvə təsir edən yarımmüstərinin korroziyadan dağılması.

İcraçı: k.e.i. E.T. Bağırov.

Korroziya mühitində yerləşdirilmiş elasiti xassəliyarımmüstərinin sərhəddində təsir edən toxunan qüvvədən dağılması məsələsi həll edilir.

İş 9. Özlüelastiki plastik elliptik deşikli sonsuz lövhənin dağılmasının modelləşdirliməsi.

İcraçı: R.Q. Əliməmmədov.

Uyğun model sonsuz lövhənin dağılması prosesi əsasında özlüelastiki plastik materildan hazırlanmış deşikli sonsuz natur lövhənin dağılması modelləşdirilir.

İş 10. Stasionar təsadüfü təzyiq altında deşikli sonsuz lövhənin xidmət müddəti.

İcraçı: k.e.i. N.M. Nağıyeva.

Deşiyində radial istiqamətdə təsadüfü təsir edən təzyiq nəticəsində sonsuz lövhənin xiddət müddəti təyin olunmuşdur.

Elmi-təştilati fəaliyyət.

Şöbənin əməkdaşları respublikada keçirilən elmi konfraslarda məruzələrlə çıxış etmişlər (V.M. Mirsəlimov, L.X. Talıblı, R.Ə. Kazımova, M.Ə. Məmmədova, H.Ə. Məmmədova).

Prof. V.M. Mirsəlimov ümuminstitut seminarında çıxış etmişdir. Hesabat düvründə.

Yeddi məqalə çap olunmuşdur.

Şöbədə həftənin 3-cü günləri seminar fəaliyyət göstərir.

Şöbə müdiri: f.-r.e.d. prof. L.X.Talıblı